Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2026-cı il
“ 3 ” avqust tarixli
256 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığorta olunanların və sığortalıların sığortaçıda uçotu**

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 9-1-ci maddəsinə əsasən hazırlanmışdır və Qanunun 2-1.1-ci maddəsində nəzərdə tutulmuş sığorta olunanlara münasibətdə (bundan sonra – sığorta olunan) istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta (bundan sonra – icbari sığorta) fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığorta olunanların və sığortalıların sığortaçıda uçotunun təşkilati və hüquqi əsaslarını müəyyən edir.

1.2. Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. **barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlar** – Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin işçiləri (əmək müqaviləsi elektron informasiya sistemində elektron sənəd formasında bağlanılan işçilər istisna olmaqla), Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin, Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan mülki işçiləri;

1.2.2. **sığortaçı** – Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində Dövlət Sosial Müdafiə Fondu (bundan sonra – Fond);

1.2.3. **sığortalı** – Qanunun 2-1.1-ci maddəsində nəzərdə tutulmuş sığorta olunanlar üçün sığorta haqqı ödəyən dövlət orqanları, bələdiyyələr, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslər və büdcə təşkilatları;

1.2.4. **sığorta olunanın sığortaçıda uçotu** – sığorta olunanlara dair sığortalıların sığortaçıya təqdim etdiyi məlumatlar, habelə Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra – MEİS) “Əmək və məşğulluq” altsistemindən (bundan sonra – ƏMAS) əldə edilən məlumatlar əsasında sığorta olunanların uçota alınması və həmin uçot məlumatlarında dəyişikliklərin aparılması;

1.2.5. **sığortalının sığortaçıda uçotu** – sığortalıların uçota alınması və həmin uçot məlumatlarında dəyişikliklərin aparılması;

1.2.6. **unikal kod** – barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlara bu Qaydanın 3-cü hissəsinə uyğun olaraq bir dəfə xüsusi alqoritmlə müəyyən edilərək verilən təkrarolunmaz nömrə.

1.3. Bu Qaydada istifadə olunan digər anlayışlar Qanunla və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

1.4. Sığorta olunanların və sığortalıların sığortaçıda uçotu mərkəzləşdirilmiş qaydada bu Qaydanın 1.5-ci bəndi nəzərə alınmaqla ƏMAS vasitəsilə təşkil edilir. Sığorta olunanların (barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlar istisna olmaqla) "MyGov" platformasında olan şəxsi kabinetində özləri barəsində uçot məlumatlarını yoxlamaq imkanı yaradılır.

1.5. Barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanların sığortaçıda uçotu kağız daşıyıcıda (elektron daşıyıcı əlavə edilməklə) aparılmaqla ƏMAS-a daxil edilmir və kağız daşıyıcıda (elektron daşıyıcı əlavə edilməklə) saxlanılır.

1.6. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-1-ci hissəsi ilə müəyyən edilmiş hallarda əmək müqaviləsi kağız üzərində yazılı formada bağlanılan şəxslərin (Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin işçiləri istisna olmaqla), bələdiyyə üzvlərinin, o cümlədən sığortalıda istehsalat təcrübəsi (təlimi) keçən tələbələrin və şagirdlərin, könüllü fəaliyyətin iştirakçısı olan könüllülərin, habelə sığortalı ilə mülki-hüquqi müqavilə əsasında öhdəliklərini yerinə yetirən şəxslərin sığortaçıda uçotu sığortalının həmin şəxslər barədə məlumatları ƏMAS-a daxil etməsi, barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər barədə məlumatların isə kağız daşıyıcıda (elektron daşıyıcı əlavə edilməklə) sığortaçıya göndərilməsi yolu ilə təşkil edilir.

## 2. Sığortalıların və sığorta olunanların sığortaçıda uçot məlumatları

2.1. Sığortalının sığortaçıda qeydə alınan uçot məlumatları aşağıdakılardır:

2.1.1. sığortalının adı;

2.1.2. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN) və verilmə tarixi;

2.1.3. sığortalının hüquqi, faktiki ünvanı və əlaqə nömrəsi;

2.1.4. sığortalıya münasibətdə icbari sığortanın təmin edilməsinin Fond tərəfindən həyata keçirilməsinə başlandığı tarix;

2.1.5. sığortalının yenidən təşkili və ləğv edilməsi tarixləri barədə məlumat;

2.1.6. sığorta haqları üzrə büdcə ilinin əvvəlinə hesablanmış, ödənilmiş və qalıq (olduğu halda) məbləğlər;

2.1.7. artıq ödənilmiş sığorta haqqı;

2.1.8. sığortalının yenidən təşkil olunması nəticəsində hüquqi varis kimi müəyyən edilmiş yeni sığortalıya (sığortalılara) transfer olunan ödənilmiş sığorta haqlarının məbləği barədə məlumatlar;

2.1.9. artıq ödənilmiş sığorta haqqının Fond tərəfindən qaytarılmış məbləği.

2.2. Sığorta olunanın sığortaçıda qeydə alınan uçot məlumatları aşağıdakılardır:

2.2.1. fərdi məlumatlar (barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlar istisna olmaqla): soyadı, adı, atasının adı, doğulduğu il, ay, gün, doğulduğu yer, cinsi, qeydiyyatda olduğu ünvanı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi və etibarlılıq müddəti, fərdi identifikasiya nömrəsi (FİN) və əlaqə vasitələri (telefon nömrəsi, elektron poçt ünvanı və s.);

2.2.2. barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlar üzrə – unikal kod və bu Qaydanın 2.2.3-cü və 2.2.4-cü yarımbəndlərində nəzərdə tutulan məlumatlar;

2.2.3. xidməti məlumatlar: sığorta olunana (bu Qaydanın 2.3-cü və 2.4-cü bəndlərində nəzərdə tutulan sığorta olunanlar istisna olmaqla) münasibətdə icbari sığortanın təmin edilməsinin Fond tərəfindən həyata keçirilməsinə başlandığı tarix,

həmin tarixdən etibarən sığorta olunanın əmək müqaviləsinin qüvvədə olduğu dövr üzrə vəzifə maaşı və ona əlavənin məbləği və hesablanmış sığorta haqqı;

2.2.4. sığorta olunanın kateqoriyası və peşə risk dərəcəsi;

2.2.5. icbari sığorta ödənişi (bundan sonra – sığorta ödənişi) barədə məlumatlar (sığorta ödənişinin verilməsi üçün əsas olan sığorta hadisəsi barədə məlumatlar və təqdim olunmuş sənədlər, sığorta ödənişinin verilməsi, o cümlədən sığorta ödənişinin verilməsindən imtina barədə (səbəbi qeyd olunmaqla) qəbul edilmiş qərar və onun tarixi (il, ay, gün), Fond tərəfindən ödənilmiş sığorta ödənişinin məbləği, sığorta ödənişi verilmiş faydalanan şəxs barədə məlumatlar (soyadı, adı, atasının adı, FİN-i) və əlaqə vasitələri (telefon nömrəsi, elektron poçt ünvanı və s.), sığorta ödənişinin köçürüldüyü bank hesabının rekvizitləri, sığorta ödənişinin ödənildiyi tarix (il, ay, gün).

2.3. Sığortalı ilə mülki-hüquqi müqavilə əsasında öhdəliklərini yerinə yetirən sığorta olunanlara münasibətdə bu Qaydanın 2.2-ci bəndində (bu Qaydanın 2.2.2-ci və 2.2.3-cü yarımbəndləri istisna olmaqla) nəzərdə tutulan məlumatlara əlavə olaraq mülki-hüquqi müqavilənin qüvvədəolma müddəti və müqavilənin qiymətinə (vaxtaşırı ödənilməsi nəzərdə tutulduğu halda müqavilənin qüvvədəolma müddəti üzrə hesablanan ümumi qiymətinə) dair məlumatlar da əlavə edilir.

2.4. İstehsalat təcrübəsi (təlimi) keçən tələbələrə və şagirdlərə, könüllü fəaliyyətin iştirakçısı olan könüllülərə münasibətdə isə bu Qaydanın 2.2-ci bəndində (bu Qaydanın 2.2.2-ci və 2.2.3-cü yarımbəndləri istisna olmaqla) nəzərdə tutulan məlumatlara əlavə olaraq istehsalat təcrübəsinin başlama və bitmə tarixi, könüllülərə münasibətdə isə müqavilənin qüvvədəolma müddəti, habelə sığorta haqqının hesablandığı tarixə ölkə üzrə müəyyən edilmiş minimum aylıq əməkhaqqı məbləği barədə məlumatlar da əlavə edilir.

2.5. Büdcə ili başa çatdıqdan sonra əvvəlki büdcə ili üçün artıq ödəmə müəyyən edildiyi halda, artıq ödənilmiş sığorta haqları ilə bağlı bu Qaydanın 2.1.7-ci və 2.1.9-cu yarımbəndlərində nəzərdə tutulan məlumatlar aşağıdakı ardıcıllıqla və bu Qaydanın 1.5-ci bəndi nəzərə alınmaqla ƏMAS vasitəsilə real vaxt rejimində hesablanaraq uçot zamanı nəzərə alınır:

2.5.1. artıq ödənilmiş sığorta haqları ilkin olaraq sığorta haqları üzrə sığortalının digər borclarının (olduğu halda) ödənilməsinə yönəldilir və ya növbəti dövr üzrə hesablanmış sığorta haqları ilə əvəzləşdirilir;

2.5.2. artıq ödənilmiş sığorta haqlarının qaytarılmasına dair sığortalının müraciəti sığortaçıya daxil olduqda, bu Qaydanın 2.5.1-ci yarımbəndində nəzərdə tutulan məbləğlər və bank xərcləri çıxıldıqdan sonra artıq ödənilmiş sığorta haqlarının qaytarılması 45 (qırx beş) gün müddətində təmin edilir və bu müddət sığortalının bu barədə ərizə verdiyi gündən sığorta haqlarının Nazirliyin xüsusi xəzinə hesabından çıxdığı günədək olan dövrü əhatə edir. Qaytarılmalı olan məbləğ ərizənin qəbul edildiyi gündən 25 (iyirmi beş) gün müddətində Fondun xüsusi bank hesabından Nazirliyin xüsusi xəzinə hesabına və həmin xəzinə hesabından 20 (iyirmi) gün müddətində müvafiq sığortalının xəzinə (bank) hesabına qaytarılır.

2.6. Sığortalının ləğv edilməsi, eləcə də sığorta haqlarının səhv ödənilməsi hallarında büdcə ili üçün artıq ödəmə məbləği müəyyən edildiyi halda bu Qaydanın 1.5-ci bəndi nəzərə alınmaqla bu Qaydanın 2.5-ci bəndinə uyğun olaraq ƏMAS vasitəsilə real vaxt rejimində hesablanaraq uçot zamanı nəzərə alınır.

## 3. Sığortalılar tərəfindən barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlar üçün unikal kodun alınması

3.1. Sığortalı bu Qaydanın 1.2.1-ci yarımbəndində qeyd edilən sığorta olunanların hər biri üçün unikal kodun alınması məqsədilə say göstərməklə, həmin

şəxslərin işə başladıqları tarixdən etibarən 5 (beş) iş günü müddətində sığortaçıya müraciət edir.

3.2. Sığortaçı daxil olmuş müraciətə 15 (on beş) iş günü müddətində baxaraq müraciətdə qeyd edilən sığorta olunanların sayına uyğun olaraq unikal kodun verilməsini təmin edir və həmin kodları kağız daşıyıcıda (elektron daşıyıcı əlavə edilməklə) sığortalıya göndərir.

3.3. Barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlarla əmək müqaviləsinə və ya mülki-hüquqi müqavilə əsasında davam edən münasibətə xitam verildiyi halda sığortalı tərəfindən sığortaçıya həmin sığorta olunana verilmiş unikal kodun ləğv edilməsi ilə bağlı yazılı müraciət göndərilir.

## 4. Sığortalıların və sığorta olunanların sığortaçıda uçotu və uçot məlumatlarında dəyişiklik edilməsi

4.1. Sığortalıların sığortaçıda uçotu sığortalıların sığortaçıya təqdim etdiyi məlumatlar və MEİS-ə inteqrasiya edilən dövlət orqanlarının və qurumlarının informasiya ehtiyatlarından və sistemlərindən əldə edilən məlumatlar əsasında həyata keçirilir.

4.2. Sığorta olunanların (barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlar istisna olmaqla) sığortaçıda uçotu bu Qaydanın 2.2.1-ci yarımbəndində nəzərdə tutulan uçot məlumatlarının ƏMAS-a daxil edilməsi yolu ilə sığorta olunanın FİN-i əsasında real vaxt rejimində avtomatlaşdırılmış qaydada həyata keçirilir. Bu Qaydanın 2.2.3-cü, 2.2.4-cü yarımbəndlərində və 2.3-cü bəndində nəzərdə tutulan uçot məlumatları sığortalının, 2.2.5-ci yarımbəndində və 2.4-cü bəndində nəzərdə tutulan uçot məlumatları sığortalı və sığortaçının ƏMAS-a daxil etdiyi məlumatlar əsasında qeydə alınır.

4.3. Bu Qaydanın 1.6-cı bəndində nəzərdə tutulan sığorta olunanlar barədə məlumatlar həmin şəxslərin öz səlahiyyətlərinin icrasına (əmək fəaliyyətinə) başladığı, istehsalata və ya işə cəlb edildiyi və ya mülki-hüquqi müqavilənin qüvvəyə mindiyi tarixdən sığortalı tərəfindən 3 (üç) iş günü müddətində ƏMAS-a daxil edilir, barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan şəxslər barədə məlumatlar isə kağız daşıyıcıda (elektron daşıyıcı əlavə edilməklə) sığortaçıya göndərilir.

4.4. Sığortalıların və sığorta olunanların uçot məlumatlarında dəyişiklik bu Qaydanın 4.1-ci və 4.2-ci bəndlərinə uyğun olaraq, sığortalının təqdim etdiyi və ya ƏMAS-dan əldə olunan məlumatlar əsasında aparılır.

4.5. Qanunun 14.3-cü maddəsində nəzərdə tutulan hallarda bu Qaydanın 2.1.6-cı, 2.1.7-ci, 2.2.3-cü və 2.2.4-cü yarımbəndlərində, 2.3-cü və 2.4-cü (sığorta haqqının hesablandığı tarixə ölkə üzrə müəyyən edilmiş minimum aylıq əməkhaqqı məbləği barədə məlumatlar istisna olmaqla) bəndlərində qeyd olunan məlumatlarda dəyişikliklər bu Qaydanın 1.5-ci bəndi nəzərə alınmaqla, sığortalının 5 (beş) iş günü müddətində təqdim etdiyi məlumatlar əsasında ƏMAS vasitəsilə real vaxt rejimində edilir.

4.6. Barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığorta olunanlar sonradan barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulmayan sığorta olunanlar kateqoriyasına aid edildikdə, həmin sığorta olunanlara münasibətdə məlumatların tamlığının təmin edilməsi məqsədilə bu barədə müvafiq halın rəsmiləşdirildiyi gündən 5 (beş) iş günü müddətində sığortalı tərəfindən yazılı şəkildə sığortaçıya məlumat verilir və bu Qaydanın 2.2.2-ci yarımbəndində nəzərdə tutulan məlumatlar saxlanılmaqla, həmin sığorta olunanlar barəsində bu Qaydanın 2.2.1-ci yarımbəndində nəzərdə tutulan məlumatlar da ƏMAS-a daxil edilir.